***Vahid Hacıbəy oğlu ABBASOV***
***i.e.d., prof., kafedra müdiri, BDU;***

***Aytəkin Məmməd qızı HÜSEYNLİ***
***disertant***

# KƏND TƏSƏRRÜFATINDA İSTEHSAL FƏALİYYƏTİNİN ZƏRURİLİYİ VƏ İNKİŞAF PRİORİTETLƏRİ

***Xülasə***

**Tədqiqatın məqsədi** - kənd təsərrüfatında istehsal fəaliyyətinin zəruriliyini əsaslandırmaqla, kənd təsərrüfatında istehsal fəaliyyətinin inkişaf prioritetlərini müəyyənləşdirməkdən ibarətdir.

**Tədqiqatın metodologiyası** – bazar iqtisadiyyatı şəraitində kənd təsərrüfatında istehsal fəaliyyətinin inkişafını müəyyən edən normativ-hüquqi aktlar, iqtisadi fəaliyyət sahəsində qəbul olunmuş qanunlar, yeni klassik və keynsçi iqtisadi məktəblərin baxışları.

**Tədqiqatın tətbiqi əhəmiyyəti**- kənd təsərrüfatı istehsalının ölkə əhalisinin ərzaq və qida tələbatlarının ödənilməsində, emal sənayesinin xammal təminatının yaxşılaşdırılmasında inkişaf templərinə nail olunması.

**Tədqiqatın nəticələri** - digər iqtisadi fəaliyyət növlərindən fərqli olaraq, kənd təsərrüfatı istehsalındakı xüsusiyyətlərın maddi-texniki bazasının formalaşmasında, hərtərəfli təhlillərin aparılmasında, istehsalın təşkili və idarə olunmasında, istehsal resurslarından səmərəli istifadə olunmasında nəzərə alınmalı və daima təkmilləşdirilməlidir; ərzaq və qida tələbatını müəyyənləşdirən zaman eyni növ qida və arzaq istehlakı əmtəələrinə əsaslanmaq məqbul sayıla bilməz, fizioloji tələbatların ödənilməsində əhalinin iqtisadi, sosial, mədəni və fiziki davranış amilləri nəzərə alınmaqla istehsal fəaliyyətləri stimullaşdırılmalı və reallaşdırılmalı, milli səviyyədə və ev təsərrüfatları səviyyəsində ərzaq təchizatı məlumatlarının dəqiqləşdirilməsi və subsidiyalaşma tədbirlərinin həyata keçirilməsi zəruridir; milli inkişaf proqramlarında istehsalın hədəfləri konkretləşdirilməklə, əhalinin gəlir səviyyələrini, qida təhlükəsizliyi və ətraf mühit, əhali artımı və miqrasiya məsələlərini nəzərə almaqla ərzaq və qida məhsullarının hansı ölkədən, hansı şəraitlərdə sərbəst əldə edilə bilən olması imkanlarının qiymətləndirilməsi və nəzərə alınması vacibdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – nəticələr faktiki məlumatlarla adekvatdır və əldə olunan nəticələr yenilik xarakterlidir.

***Açar sözlər: kənd təsərrüfatı, bitkiçilik məhsulları, əkin sahələri, heyvandarlıq məhsulları, ərzaq məhsulları, istehlak tələbatı.***

***

**Kənd təsərrüfatında istehsal fəaliyyətinin zəruriliyi və xüsusiyyətləri**

Kənd təsərrüfatında istehsal fəaliyyətinə və istehsalın həcminə cəmiyyətin çoxsaylı tələbatları və müasir iqtisadi biliklərdə bu tələbatları doğuran sosial-iqtisadi proseslər öz təsirini göstərməkdədir. Bununla yanaşı kənd təsərrüfatında istehsal fəaliyyətinə və istehsalın həcminə müasir qloballaşma dövrünün yaratdığı nəinki ümumi iqtisadi problemlər, hətta bu iqtisadi problemlərdən ortaya çıxan və kənd təsərrüfatı iqtisadiyyatında günbəgün aktuallaşan gəlirlilik, səmərəlilik, sosial ədalətlilik və dinamik inkişaf problemləri də əlavə olunmuşdur ki, bu məsələnin həllində bazar iqtisadiyyatı elmi acizdir. Birləşmiş Millətlər Təşkilatının Kənd Təsərrüfatı və Ərzaq məsələləri üzrə Komissiyasının (FAO) məlumatlarına görə 2000-2015-ci illərdə ərzağın bütün növləri üzrə qiymətlər indeksinin artması və ərzaq istehsalında baş verən qlobal iqtisadi geriləmələr nəticəsində dünyada ac və qidalanmadan əziyyət çəkən insanların sayı bu vaxta qədər müşahidə olunmamış həddə qədər yüksələrək 1,2 milyard nəfərdən çox olmuşdur [1].

Ayrı-ayrı iqtisadi fəaliyyət növlərində olduğu kimi kənd təsərrüfatı istehsalında da ümumi iqtisadi qanunauyğunluqlar fəaliyyət göstərir. Ancaq bu qanunauyğunluqların bir çoxu kənd

təsərrüfatı istehsalının spesifik xüsusiyyətlərini nəzərə almadan tətbiq olunur ki, bu da kənd təsərrüfatı istehsalı ilə digər iqtisadi fəaliyyət növləri arasındakı bir sıra fərqləndirici cəhətləri əks etdirmir. Kənd təsərrüfatı istehsalının ən fərqləndirici cəhətlərindən biri ondan ibarətdir ki, burada əsas istehsal vasitəsi kimi torpaqdan istifadə olunur. Digər istehsal vasitələrindən fərqli olaraq torpaq sahələrinin həcmi əhalinin artım tempinə adekvat olaraq artmır və əksinə, hər min nəfərə düşən kənd təsərrüfatına yararlı torpaq sahələri durmadan azalır. Digər iqtisadi fəaliyyət növlərində tətbiq olunan əsas istehsal fondları vaxtaşırı aşınaraq yenisi ilə əvəz oluna bildiyi halda, kənd təsərrüfatında istifadə olunan yararlı torpaq sahələri tamamilə aşınmır və yenisi ilə əvəz olunmur. Bu istehsal vasitəsindən istifadə şəraitləri tam fərqli olmaqla yanaşı, müxtəlif coğrafi məkanlarda bu istehsal vasitəsinin fiziki və kimyəvi xassələri bir-birindən kəskin fərqlənir, bunlardan düzgün istifadə etdikdə öz kəmiyyət və keyfiyyət parametrlərini saxlaya bilir.

Bitkiçilik və heyvandarlıq məhsulları istehsalında istehsal vasitəsi rolunda məhsuldar heyvanlar və bitkilər aləmi kimi canlı orqanizmlər çıxış edir ki, bunların hər ikisi bioloji qanunlar əsasında fəaliyyət göstərir və inkişaf edir. Kənd təsərrüfatında təkrar istehsalın iqtisadi prosesləri canlı orqanizmlərin təbii inkişaf prosesi ilə üst-üstə düşür. Kənd təsərrüfatı məhsullarının istehsalı böyük əraziləri əhatə etməklə müxtəlif təbii-iqlim şəraitlərində həyata keçirilir. Kənd təsərrüfatı istehsalında son nəticələr çox vaxt istehsalata yönəldilən resursların kəmiyyət və keyfiyyətindən asılı olmur. Son nəticələr çox vaxt konkret təbii şəraitlərdən asılı olur ki, bu da kənd təsərrüfatı istehsalının ərazi xüsusiyyətləri ilə müəyyən olunaraq yerləşdirilməsini tələb edir. Kənd təsərrüfatı istehsalının ərazilər üzrə yerləşdirilməsi həm istehsal olunan məhsulların, həm də eyni zamanda bu sahədə istifadə olunacaq texnika və material resurslarının daşınma həcmlərinin müəyyən olunmuş nisbətlərdə gözlənilməsini zəruri edir.

Kənd təsərrüfatında istehsalın vacib xüsusiyyətlərindən biri odur ki, burada yaradılan məhsullar təsərrüfatdaxili istehsal mərhələlərində istifadə olunur. Kənd təsərrüfatında dövriyyə istehsal vasitələri kimi kəndli təsərrüfatlarının özündə istifadə olunan toxum və əkin materiallarından, yemlərdən və hətta məhsuldar mal-qaranın baş sayının bərpa olunması üçün cavan mal-qaranın bir hissəsindən istifadə edilir. Digər tərəfdən kənd təsərrüfatı istehsalı üçün binalar və əlavə tikililər tələb olunur ki, bunlara da mal-qara üçün tövlələr, yem saxlamaq üçün binalar, toxum və əkin materialları üçün anbarlar və saxlama kameraları aiddir.

Kənd təsərrüfatında istehsalın vacib cəhətlərindən biri də ondan ibarətdir ki, burada iş vaxtı müddəti məhsul istehsalı dövrü ilə üst-üstə düşmür ki, bu da kənd təsərrüfatı istehsalının mövsümiliyi ilə müəyyən olunur. Kənd təsərrüfatında mövsümilik istehsalın təşkilinə, texnikadan, əmək resurslarından səmərəli istifadə olunmasına və son hesabda bu sahənin səmərəliliyinə ciddi təsir göstərir. Əmək bölgüsü və bununla əlaqədar olaraq kənd təsərrüfatı istehsalında ixtisaslaşma emal sənayesi və digər sahələrdəkindən fərqli olaraq baş verir. Kənd təsərrüfatında torpaq, əmək və material resurslarından rasional istifadə etmək məqsədilə bitkiçilik ilə heyvandarlıq sahələrinin optimal əlaqələndirilməsi və buna müvafiq olaraq yardımçı təsərrüfatların inkişaf etdirilməsi vacibdir.

Kənd təsərrüfatında əməyin təşkili prosesləri bitkiçilik və heyvandarlıq sahələrində də bir-birindən fərqlənir. Burada çalışanlar sənayedə olduğu kimi daimi iş yerlərinə malik deyildirlər. İlin ayrı-ayrı vaxtlarından asılı olaraq çölçülükdə çalışan fəhlələr və mexanizatorlar müxtəlif işləri icra etmək qabiliyyətinə malik olmalıdır. Mexanizatorlar praktiki olaraq maşın və aqreqatlarla bağlı fəaliyyətləri həyata keçirirlərsə, tarlada işləyən fəhlələr isə toxum və əkin materiallarının hazırlanmasında, bitkilərə qulluq edilməsində, yemlərin və məhsulun tədarük olunmasında iştirak etməlidirlər.

Digər iqtisadi fəaliyyət növlərindən fərqli olaraq, kənd təsərrüfatı istehsalında qeyd olunan bu xüsusiyyətlər maddi-texniki bazasının formalaşması zamanı hərtərəfli təhlillərin aparılmasında, istehsalın təşkili və idarə olunmasında, istehsal resurslarından səmərəli istifadə olunmasında nəzərə alınmalı və daima təkmilləşdirilməlidir.

**Kənd təsərüfatında istehsal fəaliyyətinin inkişaf etdirilməsinin əsas prioritetləri**

Kənd təsərrüfatında bitkiçilik və heyvavdarlıq məhsulları istehsalı iqtisadi rayonlar üzrə formalaşaraq ərazilərin təbii-iqlim şəraitlərinə uyğun olaraq həyata keçirilir. Hansı istehsal fəaliyyətinin

seçilməsi konkret olaraq ölkəmizin on təbii-iqlim coğrafiyasına əsaslanan iqtisadi rayonlarda daha münbit torpaq sahələrinin seçilməsi, istehsalın daha az xərclərlə başa gəlməsi, ərazilər üzrə məskunlaşan əhalinin ənənəvi istehsal fəaliyyətlərinə üstünlük verməsi, istehsalın həyata keçirildiyi mövcud ərazilərdə istehsal və sosial infrastrukturların inkişaf şəraitləri və digər amillər nəzərə alınmaqla formalaşmış, gələcəkdə də bu amillərin nəzərə alınması istehsalın ərazicə yerləşdirilməsi üçün strateji hədəflərə çevrilməkdədir.

İqtisadi rayonların özünəməxsus təbii-iqlim şəraitinə malik olması həm də kənd təsərrüfatı istehsalının kooperasiyalaşmasına, təmərküzləşməsinə, ixtisaslaşmasına və ərazi təsərrüfatçılıq sistemlərinin formalaşmasına təsir göstərir. Kənd təsərrüfatında cəmi 1,7 mln ha əkin sahələrinin 43,9%-dən çoxu Aran iqtisadi rayonunun payına düşür ki, bu da ölkənin ən iri təbii-iqlim bölgəsi kimi təmsil olunur. Bu iqtisadi rayon 18 inzibati rayonu əhatə edir ki, bu da ölkə üzrə cəmi ərazinin 24,8%-ni təşkil edir. Ölkədə əkin sahələrinin xüsusi çəkisinə görə Gəncə-Qazax və Şəki-Zaqatala iqtisadi rayonları ikinci və üçüncü sıraları bölüşür ki, burada da cəmi əkin sahələrinin uyğun olaraq 12% və 11%-ə qədəri əhatə olunmuşdur. Əkin sahələrinin xüsusi çəkisində nisbətən fərqlənən iqtisadi rayonların sırasında bütün əkin sahələrinin təqribən 9%-ni təşkil etməklə Dağlıq Şirvan və təqribən 7,2%-i təşkil etməklə işğaldan azad olunmuş Yuxarı Qarabağ iqtisadi rayonlarının xüsusi çəkisi fərqlənməkdədir. Quba-Xaçmaz və Lənkəran iqtisadi rayonlarının hər biri ümumi əkin sahələrinin təqribən 6-7%-ə qədərini əhatə etməkdədirlər. Ölkə üzrə cəmi əkin sahələrinin 4,4%-ə qədəri Naxçıvan MR, Abşeron və Kəlbəcər-Laçın iqtisadi rayonlarının payına düşür.

Əkin sahələrinin xüsusi çəkisinin yüksək olduğu ərazilər məhsuldar torpaqların, işçi qüvvəsi və suvarma ehtiyatlarının, sənaye emalı müəssisələrinin və infrastruktur obyektlərinin inkişafına görə də böyük potensial imkanlara malikdir. Əsas kapitala yönəldilən investisiyaların tərkibinə görə də qeyd olunan iqtisadi rayonların xüsusi çəkisi nisbətən yüksək olmuşdur.

Ölkənin ümumi ərazisinin 6%-dən çoxunun əhatə olunduğu Abşeron iqtisadi rayonunda cəmi ölkə əhalisinin yarıdan çoxunun məskunlaşmasına, sənaye məhsulunun 34%-nin cəmləşməsinə baxmayaraq kənd təsərrüfatı məhsulunun cəmi 2,2%-ni təşkil edir. Son zamanlar iqtisadi rayonlarda milli inkişaf proqramlarının reallaşmasına uyğun olaraq bu iqtisadi rayon üzrə əkin sahələrinin xüsusi çəkisi 2 dəfədən çox artmışdır [2].

Əhalinin ərzaq və qida məhsullarına, emal sənayesinin müxtəlif növ kənd təsərrüfatı mənşəli sənaye xammallarına olan tələbatının ödənilməsi zəruriliyi müvafiq qaydada kənd təsərrüfatı bitkilərinin əkin sahəsinin tərkibini formalaşdırmaqdadır. Belə ki, zəruri istehlak tələbatlarının ödənilməsində dənli və dənli-paxlalı bitkilərə tələbatın yüksək olması, ölkə üzrə ümumi əkin sahələrinin 62,5%-ə qədərinin bu bitkilərin istehsal olunması üçün ayrılmasına şərait yaratmışdır. Kənd təsərrüfatı istehsalında ümumi məhsulun dəyərinə görə heyvandarlıq sahələri bitkiçiliyi üstələdiyinə görə, yem bitkilərinin istehsalına tələbatın artması ümumi əkin sahələrinin tərkibində bu bitkilərin əkin sahəsinin 21,4% təşkil etməsinə şərait yaratmışdır. Kartof, tərəvəz və bostan bitkilərinin əkin sahəsi cəmi əkin sahəsinin 8,6%-ni, texniki bitkilərin əkin sahəsi isə 7,6%-ni təşkil etmişdir ki, bu da kənd təsərrüfatında müvafiq fəaliyyət növlərinin formalaşmasına və dinamik inkişaf etdirilməsinə təsir göstərməkdədir.

Ölkəmizin iqtisadi müstəqilliq əldə etməsi ilə ənənəvi satış bazarlarının itirilməsi nəticəsində 1991-2019-cu illər ərzində ən vacib bitkiçilik məhsullarının əkin sahələrinin dinamikasında da müəyyən dəyişikliklər müşahidə olunmaqdadır. Müqayisə olunan dövrdə dənli və dənli-paxlalı bitkilərə olan istehlak tələbatlarının yerli istehsal imkanları hesabına ödənilməsi zəruriliyi bu növ məhsulların əkin sahələrinin təqribən 2 dəfəyə qədər artmasına şərait yaratmışdır. Digər bitkiçilik məhsulları ilə müqayisədə yüksək gəlirlilik imkanlarına baxmayaraq, texniki bitkilərin istehsalı üçün ayrılmış əkin sahələrinin 1990-2015-ci illər ərzində 20-25 dəfəyə qədər azalması müşahidə olunmuşdur. Sonrakı 5 il ərzində texniki bitkilər istehsalının subsidiyalaşması tədbirlərinin reallaşdırılması sayəsində texniki bitkilərin əkin sahələrinin 10-15 dəfəyə qədər artması müşahidə olunmaqdadır.

Bütün bunlarla yanaşı, yemlik bitkilərin əkin sahələri də heyvandarlığın baş sayının artması templərinə uyğun formalaşmamışdır. Hazırkı dövrdə yem istehsalı üşün istifadə olunan yem

bitkilərinin əkin sahələri heyvandarlığın baş sayının təqribən 1,8 dəfəyə qədər az olduğu 1990-cı illər səviyyəsindən belə 20% həcminə qədər aşağıdır ki, bu da heyvandarlığın qaba, qarışıq, şirəli və yaşıl yemlərdən ibarət olan 4 qrup yem tələbatlarının ödənilməsində ciddi problemlər yarada bilər. Digər ərzaq məhsullarının istehsalı üçün istifadədə olan əkin sahələri də mövcud istehlak tələbatlarının müəyyən olunmuş normalar üzrə ödənilməsi üçün qaneedici səviyyədə deyildir.

Ərzaq məhsullarına olan tələbatın müəyyənləşdirilməsi və buna uyğun istehsal fəaliyyətlərinin həyata keçirilməsi üçün təkcə mövcud statistik məlumatlardan istifadə olunması kifayətedici deyildir. Bu məlumatlar müxtəlif əhali qruplarının pəhrizini formalaşdıran qidalanma adekvatlığını qiymətləndirmək üçün kifayət deyil, qida təminatında yeniyetmələrin, müxtəlif əmək fəaliyyəti ilə məşğul olan qadınlar və kişilərin, gənc və ahıl əhali qruplarının fərdi tələbatına uyğun olaraq proqnozlaşdırılmalıdır. Qida tələbatını müəyyənləşdirən zaman eyni növ qida və arzaq istehlakı əmtəələrinə əsaslanmaq məqbul sayıla bilməz, fizioloji tələbatların ödənilməsində əhalinin iqtisadi, sosial, mədəni və fiziki davranış amilləri nəzərə alınmaqla istehsal fəaliyyətləri stimullaşdırılmalı və reallaşdırılmalıdır. Milli səviyyədə və ev təsərrüfatları səviyyəsində ərzaq təchizatı məlumatları dəqiqləşdirilməli və subsidiyalaşma tədbirləri həyata keçirilməlidir. Qlobal, milli və sahəvi komplekslər səviyyəsində həyata keçirilən milli inkişaf proqramlarında istehsalın hədəfləri konkretləşdirilməli, əhalinin gəlir səviyyələrini, qida təhlükəsizliyi və ətraf mühit, əhali artımı və miqrasiya məsələlərini nəzərə almaqla ərzaq və qida məhsullarının hansı ölkədən, hansı şəraitlərdə sərbəst əldə edilə bilən olması imkanları qiymətləndirilməklə nəzərə alınmalıdır.

## ƏDƏBİYYAT


1. http://www.fao.org/food-agriculture-statistics/ru/; Statistical Yearbook 2020.
2. https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/, Azərbaycanın kənd təsərrüfatı, 2020.
3. Nuriyev Ə.X. Regional siyasət və idarəetmənin əsasları. Bakı: “Elm və təhsil” nəşriyyatı, 2011, 516 s.
4. Məmmədov. N. Ölkənin iqtisadi təhlükəsizliyi. Bakı. 2005. 309 s.
5. Abbasov V. H., Aqrar sahədə iqtisadi tənzimlənmənin aktual problemləri, Monoqrafiya, Bakı, 2012, 423 s.
6. Xəlilov H.A. Milli ərzaq təhlükəsizliyi: bazar transformasiyaları və iqtisadi qloballaşma amilləri. Bakı, 2001, 176 s.



***Вахид Гаджибей оглу Аббасов***
***д.э.н., проф., заведующий кафедрой БГУ,***

***Айтекин Мамед кызы Гусейнли***
***диссертант***


## Необходимость и приоритеты развития производственной деятельности в сельском хозяйстве


***Резюме***

**Цель исследования** - определение приоритетов развития сельскохозяйственного производства, обоснование необходимости производственной деятельности в сельском хозяйстве.

**Методология исследования** - нормативно-правовые акты, определяющие развитие сельскохозяйственного производства в условиях рыночной экономики, законы, принятые в сфере хозяйственной деятельности, взгляды новых классических и конкретных экономических школ.

**Важность применения исследования** заключается в достижении темпов развития сельскохозяйственного производства в удовлетворении потребностей населения страны в продуктах питания и питании, улучшении снабжения сырьем перерабатывающей промышленности.

**Результаты исследования** - в отличие от других видов экономической деятельности, должны учитываться и постоянно совершенствоваться при формировании материально-технической базы сельскохозяйственного производства, комплексном анализе, организации и управлении производством, эффективном использовании производственных ресурсов; При определении потребностей в продуктах питания и питании недопустимо полагаться на одни и те же виды продуктов питания и потребительских товаров, производственная деятельность должна стимулироваться и осуществляться для удовлетворения физиологических потребностей с учетом экономических, социальных, культурных и физических факторов, это необходимо. не применять меры субсидирования; Важно оценить и принять во внимание наличие продуктов питания и продуктов питания из каких стран и при каких условиях, указав производственные цели в национальных программах развития с учетом уровней доходов, продовольственной безопасности и окружающей среды, роста населения и миграции.

**Оригинальность и научная новизна исследования** - результаты адекватны фактическим данным, а полученные результаты носят инновационный характер.

**Ключевые слова: сельское хозяйство, растениеводство, пашня, продукция животноводства, продукты питания, потребительский спрос.**

***Vahid Hajibey Abbasov***
***PhD in economics, head of the department of BSU,***

***Aytekin Mamed Huseynli***
***candidate for a degree***

**Necessity of production activities and development priorities in rural development**

***Summary***

**The purpose of the study** is to determine the priorities for the development of agricultural production, substantiate the need for production activities in agriculture.

**Research methodology** - regulatory legal acts that determine the development of agricultural production in a market economy, laws adopted in the field of economic activity, the views of new classical and specific economic schools.

The **importance of applying the study** lies in achieving the rate of development of agricultural production in meeting the needs of the country's population in food and nutrition, improving the supply of raw materials for the processing industry.

**The results of the study**, unlike other types of economic activity, should be taken into account and constantly improved in the formation of the material and technical base of agricultural production, comprehensive analysis, organization and management of production, efficient use of production resources. When determining the needs for food and nutrition, it is unacceptable to rely on the same types of food and consumer goods, production activities must be stimulated and carried out to meet physiological needs, taking into account the economic, social, cultural and physical factors, it is necessary. not apply subsidizing measures; It is important to assess and take into account the availability of food and food products from which countries and under what conditions, specifying production targets in national development programs, taking into account income levels, food security and the environment, population growth and migration.

**Originality and scientific novelty of the research** - the results are adequate to the actual data, and the results obtained are innovative.

***Key words: agriculture, crop production, arable land, livestock products, food products, consumer demand.***